# XALQ YARADICILIĞINA MƏHƏBBƏTLƏ




***Xalq şairi Osman Sarıvəllinin anadan olmasının 100 illiyi yaxınlaşır. Cari ilin yubileyləri sırasında bu məqam xüsusi yer tutur. Osman Sarıvəlli xalq həyatından, el ədəbiyyatından bəhrələnən, geniş oxucu kütləsinin qəlbinə çox doğma olan şairlərdəndir. Onun çoxcəhətli yaradıjılığında aşıq sənətinin, sazın da xüsusi yeri vardır. O istər məqalələrində, çıxışlarında, istərsə də bədii əsərlərində dönə-dönə sazdan, onun qüdrətindən, ecazkarlığından danışmış, saza olan məhəbbətini, dərin ülvi hisslərini mənalı şerlərə çevirmişdir.***

Osman Abdulla oğlu Qurbanov 1905-ci ildə Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. Qazax müəllimlər seminariyasını və Moskva Dövlət Universitetini bitirmişdir. Pedaqoji fəaliyyət göstərmişdir. İlk kitabı "Dəmir sətirlərim" 1934-cü ildə işıq üzü görmüşdür. Onda şairin vur-tut 19 yaşı vardı. Bunun ardınca o onlarla kitabını oxucuların diqqətinə vermişdir. Bu əsərlər özünün mövzu rəngarəngliyinə görə bir-birindən ciddi surətdə fərqlənir. Onlar arasında xalq yaradıcılığı, saz-söz sənəti ilə bağlı şerləri xüsusi yer tutur. Folklorumuza bu cür qayğı və məhəbbətin nəticəsidir ki, xalq yaradıcılığının güclü qollarından birini təşkil edən saz sənəti əsrlərin keşməkeşli sınağından müvəffəqiyyətlə çıxmış, zəmanəmizə qədər gəlib çatmış, öz mövqeyini qoruyub saxlaya bilmişdir. Lakin etiraf etməliyik ki, ayrı-ayrı vaxtlarda aşıq musiqisinə, saza ehtiramla bərabər, yanlış və bəzən də ögey münasibət bəsləyənlər də olmuşdur. Hətta indinin özündə də aşıqlığı yalnız ənənəvi geyimdə və sazda görən, bu sinkretik sənətin geniş imkanlarına bələd olmayan, ondan qazanc məqsədilə istifadə edənlərə ara-sıra rast gəlinir. Belə hallara qarşı mübarizədə aşıq sənətinin, ulu musiqi alətimiz olan sazın, bu günlə səsləşən qədim xalq adətlərimizin təbliği zəruri bir ehtiyac kimi meydana çıxır. Bu işdə heç şübhəsiz ki, bədii ədəbiyyatın, yazıçı sözünün təsiri və əhəmiyyəti əvəzsizdir.

Bu yazımızda böyük şairimiz Osman Sarıvəllinin bu istiqamətdəki fəaliyyətindən söhbət açacağıq.

O.Sarıvəlli həmişə saza sözlə birgə qiymət vermişdir. O, "Xalq yaradıcılıq çeşmələri" məqaləsində yazır: "...Saz, güclü söz, mahir ustalıq həmahəng olanda sənət böyük qüvvə kəsb edir". Təsadüfi deyildir ki, şair Aşıq Ələsgərə həsr etdiyi "Qüdrətli şair, ustad sənətkar" kitabçasının bir fəslini də "Sazın, sözün birliyi" adlandırmışdır. Aşığın ustalığını sənətlə sözün vəhdətində görən O.Sarıvəlli yazır: "Aşıq gözəl saz çalmağı, məlahətli səslə el havacatı üstündə oxumağı, dastanı və ya əhvalatı, qaravəllini şirin və məntiqi bir dildə danışmağı bacarmalıdır. Eləcə də oxuduqlarını, söylədiklərini mahir aşıqlara xas nəcib və usta hərəkətləri ilə tamaşaçılara, dinləyicilərə çatdıra bilməlidir".

Müəllif sazla bağlı bu tezisi ilə aşıqlar üçün vacib olan keyfiyyətləri sadəcə olaraq sadalamır, bu keyfiyyətləri dinləyici ilə yaxın sıx əlaqə yaratmaq şərti kimi qəbul edir.

"Şerləri havalar üstə, havaları şerlərə görə yaradan sənətkarlar, yaradıcı aşıqlar, şərti olaraq desək, eyni zamanda el bəstəkarları olmuşlar. Ona görə yaradıcı aşıqları, eləcə də ustad Aşıq Ələsgəri təkcə şer irsi ilə tanımaq və tanıtmaq kifayət deyildir. O təkcə böyük şair deyil, həm də ustad aşıq idi". Şübhəsiz, burada söhbət əsasən ifaçılıq mədəniyyətindən gedir. Doğrudan da, Aşıq Ələsgərin saz çala-çala oxumasının şahidləri bu gün qalmasa da, onun poetik irsi deməyə imkan verir ki, aşıqda yüksək saz çalmaq, oxumaq, dinləyiciləri ələ almaq qabiliyyəti çox güclü olmuşdur.

O.Sarıvəlli "Aşıq ürəkli şair, şair ürəkli aşıq" kitabçasında Aşıq Şəmşir barəsində yazır: "Unutmaq olmaz ki, aşıq poeziyası sazla yanaşı, aşıq musiqisi ilə həmahəng inkişaf edib boy atmışdır. Yaradıcı aşıqların şerlərinin əksəriyyəti şəkil cəhətdən, havacat üzərində qurulmuşdur. Odur ki, aşıq ürəkli şair, şair ürəkli aşıq - Şəmşirin yaradıcılığına sazla sözün birliyi mövqeyindən baxmaq lazımdır".

Yaxud Aşıq Ələsgərdən bəhs edəndə müəllif yenə bildirir: "...yaradıcı aşıqlardan söhbət gedəndə sazı sözdən, sözü sazdan ayırmaq, təcrid etmək olmaz".

Şair şer və yazılarında saz havalarından da geniş bəhs edir. O göstərir ki, saz havaları yarandığı gündən bir çox dəyişmələrə məruz qalmışdır. Zaman keçdikcə, hər

yeni gələn aşıq nəsilləri də yeni-yeni havacatlar yaratmışlar. "Kərəmi", "Paşa köçdü", "Dübeyt" kimi saz havalarının məruz qaldığı dəyişmələri O.Sarıvəlli faktlarla sübut edir. Şair Aşıq Şəmşirin sağlığı vaxtında ürəkyanğısı ilə yazmışdı: "Yeri gəlmişkən demək lazımdır ki, Qocaman Aşıq Şəmşir 70-dən çox havanı, xüsusilə "Şərili", "Baş sarıtel", "Qaytarma", "Kərəm şikəstəsi", "Gilənar", "Qazax səbzəsi", "Qazax şikəstəsi", "Şahsevən", "Güllü qafiyə", "Təcnis", "Göyçə gülü", "Vaqif gözəlləməsi", "Koroğlu", "Qaragöz bala" və s. kimi havaları məharətlə ifa edir. Aşıq havalarının müəlliflərinin adlarının itib-batmaması üçün Şəmşir kimi təcrübəli aşıqlardan öyrənmək lazımdır".

O.Sarıvəlli öz şerlərində dəfələrlə saz havalarına münasibətini bildirmiş, onlardan ürəkdolusu danışmışdır. Şair öz hiss və həyəcanlarını, aşıq yaradıcılığına olan ülvi duyğularını poetik misraların gücünə arxalanaraq verməklə, saz sənətini daha yüksək zirvələrə qaldırmaq istəmişdir. O, "De gəlsin!" adlı şerini əvvəldən axıradək saz havalarına istinadən yazmışdır. "El havası", "Sarıtel", "Baş sarıtel", "Başxanım", "Cəngi", "Misri", "Şərili", "İrəvan çuxuru", "Müxəmməs", "Keşişoğlu", "Göyçə gülü", "Gilənar", "Qəhrəmanı" kimi məşhur el havalarını misralar daxilində işlətməklə öz məqsədini bacarıqla ifadə edir. O, havaların ahənginə, tonuna əsaslanır və fikirlərini bu yolla cilalayır. "Misri" üstə oxuyanda zilə çək" yaxud "Bəxtəvəri" havasına xanımtək, yırğalana-yırğalana süzənlər" misraları bu fikri daha dürüst sübut edir. Şair öz poetik ifadələri ilə "Misri" və "Bəxtəvəri" havalarının ahəngliyini, bunların təlqin etdiyi hissi bizə təqdim edir.

Bütün bunlar təsadüfi deyildir. Məlumdur ki, O.Sarıvəlli aşıqlar mühitində, saz havalarının sədaları altında böyüyən, pərvəriş tapan el sənətkarıdır. Zaman keçdikcə bu doğmalıq onun poeziyasına hopmuşdur. Şairin saz sənətinə, sazla sözün birliyinə, saz havalarına olan böyük diqqət və qayğısı sübut edir ki, o həmişə ənənəyə sadiq qalan, ona bağlı olan və bu bağlılığı yaşadan xalq şairidir.

Başqa söz adamlrının bundan nümunə götürməsi, xalq yaradıcılığının təbliği, aşıqların əsərlərinin təbliği və tədqiqi sahəsində fəaliyyətlərini gücləndirmələri müsbət nəticələr verərdi.

**İlqar Hüseynov,**
**kulturologiya elmləri doktoru**